# Epo Epofloor Ekonomik

## Texniki Məlumat Səhifəsi

### MƏHSUL HAQQINDA

*Sement əsaslı, kimyəvi qatqılarla zəngin, sıfır ayrilik səth yaranmasını təmin edən, birkomponentli döşəmə qarışığıdır. Öz-özünə yayılmaqla tarazlanır. TSEN 13813 -2004 standartına uyğundur.*

### İSTİFADƏ SAHƏLƏRİ

*Bu məhsuldan:*

*Ağac, laminat, parket, xalça, PVC, keramika kimi materialları istifadə etməzdən əvvəl düz səthin əldə edilməsində;*

### ÜSTÜNLÜKLƏRİ

Hazırlanması və istifadəsi asandır;
Öz-özünə yayılmaqla məsaməsiz, düzgün səth əmələ gətirir.

### İSTİFADƏ QAYDALARI

***Səthin hazırlanması.*** Səthin möhkəm olmasına diqqət etməli, səth yapışmağa mane olan qalıqlardan təmizlənməlidir. Səthdə qırılmış və ovulmuş yerlər olarsa, S 40 təmir qarışığı ilə və ya standartlara uyğun istehsal edilmiş digər bu tipli məhsulla təmir edilməlidir. Səthin suudma qabiliyyətini azaltmaq və müqavimətini artırmaq üçün səth mütləq BİNDER astarla astarlanmalıdır.

***Qarışığın hazırlanması.*** 25 kq quru qarişığı yavaş-yavaş 6,0 litr suyun üzərinə boşaldıb kürəciklər və hava qabarcıqları yox olana qədər qarışdırın (qarışdırmaq üçün zəif dövriyyəli mikserdən də istifadə oluna bilər).

***Tətbiqi.*** Hazırlanmış duru qarışığı səthə boşaldın. İstifadə zamanı qarışığın daxilində hava qabarcıqlarının qalmaması və yayılma əməliyyatının asanlaşması üçün kirpi  vərdənədən istifadə edin. Lazım gəldikdə yayılmanı sürətləndirmək məqsədilə polad maladan da istifadə etmək olar. Məhsulun tətbiq olunduğu səthi 24 saat ərzində küləkdən və birbaşa günəş şüalarının təsirindən qoruyun.

***Tövsiyələr.*** EPOFLOOR-un  istifadə olunduğu mühitin temperaturu +5°C-dən aşağı və +30°C-dən yuxarıdırsa lazımi temperatur təmin olunmalıdır. İsti (+30°C-dən yuxarı), yağışlı və küləkli havalarda

istifadə olunmamalıdır. İstifadədən sonra bütün alətlər və ləvazimatlar su ilə təmizlənməlidir.

**TEXNİKİ GÖSTƏRİCİLƏR**

| | |
|---|---|
| Rəngi | boz |
| İstifadə temperatutu | +5°C - +30°C |
| Su/quru qarışıq nisbəti | 6,0 litr su/25 kq quru qarışıq |
| İstifadə müddəti | 35 dəqiqə |
| İstifadə qalınlığı | 3,0 -5,0 mm |
| Bərkiməsi:<br>*ilkin*<br>*son* | <br>30-40 dəqiqədən sonra<br>70-100 dəqiqədən sonra |
| Sıxılmada möhkəmlik həddi:<br>*7 gündən sonra*<br>*28gündən sonra* | <br>23 Mpa<br>35 Mpa |
| Yapışma müqaviməti | 1,2 Mpa |
| İstifadəyə verilmə müddəti | 15 saatdan sonra üstündə hərəkət edilə bilər. 24 saatdan sonra üstünə xalça, parket,keramika və s. döşənə bilər. |
| Qablaşdırma | 2 və ya 3 qatı kraft kağızı və 1 qatı polietilendən ibarət 20 kq -lıq kisələrdə |

**“EPO YAPI KIMYA” MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Ünvan: Qarabağ,Xocalı rayonu Malıbəyli kəndi.
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.epo.com.az

## SƏRFİYYAT

1 mm qalınlıq üçün 1 $m^2$-ə 1,75 kq toz sərf oluna bilər.

## SAXLANMA MÜDDƏTİ VƏ QAYDASI

Bir-birinin üstündə maksimum 10 ədəd olmaqla quru anbarlarda 6 ay saxlanıla bilər.

## XƏBƏRDARLIQLAR

EPOFLOOR-un sement əsaslı, mürəkkəb tərkibli qarışıq olduğunu nəzərə alaraq dəriyə və ya gözə düşdükdə

dərhal su ilə yuyun;

İstifadə qaydalarında qeyd edilməyən heç bir maddə qatmayın;

Yuxarıdakı göstəricilər +23°C±2°C temperatur və 50% ±5% rütubətli şəraitdə aparılan laboratoriya sınaqları nəticəsində əldə olunmuşdur. Şəraitdən asılı olaraq bu göstəricilər dəyişə bilər.

## ZƏMANƏT VƏ TEXNİKİ DƏSTƏK

texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
“EPO YAPI KIMYA" şirkəti məhsulun keyfiyyətinə və təhlükəsizliyinə görə məsuliyyət daşıyır;
şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə halları zamanı yarana biləcək problemlərə görə “EPO YAPI KIMYA" şirkəti məsuliyyət daşımır;
şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
texniki dəstək və ya daha geniş məlumat almaq üçün “EPO YAPI KIMYA” şirkətinə müraciət edin!

**“EPO YAPI KIMYA” MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Ünvan: Qarabağ,Xocalı rayonu Malıbəyli kəndi.
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.epo.com.az